<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>BİO 310 İnsan anatomiyası, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Həyat elmləri</td></tr>
<tr><td>Proqram<br>(bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/2026-ci tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris<br>edən müəllim (lər)</td><td>Anar İbrahimov</td></tr>
<tr><td>E-mail:</td><td>ibrahimov.anar@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td>(+99412) 421 79 27 (iş)</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>Bakıxanov qəsəbəsi, 104 saylı otaq<br>Mühazirə: Şənbə günü, saat 13.40-15.10<br>Praktik məşğələ: Şənbə günü, saat 15.20-16.50</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Tələbələrlə razılaşdırılan vaxtlarda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">Əsas dərsliklər:<br>1. Ş.Q. Vəliyev, V.B.Şadlinski, A.C. Məmmədova. İnsanın anatomiya və fiziologiyası (tibb məktəblərinin tələbələri üçün dərslik). Bakı, "Çashıoğlu" nəşriyyatı, 2001, 391 səh.<br>2. V.B.Şadlinski, E.Ə.Xıdırov, A.S.Abdullayev. İnsan anatomiyası fənnindən sərbəst işlər. Bakı, "Müəllim" nəşriyyatı, 2018, 163 səh.<br>Əlavə vəsaitlər:<br>1. V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası atlası. Bakı, "Müəllim" nəşriyyatı, 2016, 652 səh.<br>2. V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, "Müəllim", 2017.<br>3. Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека. Учебник для студентов леч.-проф. факультета (в 2-х томах). Баку, 2010.<br>4. Drake R, Vogl W, Mitchell A. Gray's anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009.<br>5. Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019.<br>6. Müəllim tərəfindən təqdim olunmuş PPT prezentasiyalar.<br>http://www.visiblebody.com/index.htmlı; http://www.getbodysmart.com<br>http://www.anatomyatlases.org; http://www.instantanatomy.net<br>http://medbibl.igma.ru/54-distsipliny/207-anatomiya-2</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Bu kurs insan orqanizminin normada makroskopik quruluşunun ayrı-ayrı apparat və sistemlər üzrə tədrisini əhatə edir. Kursun gedişində müxtəlif əyani vəsaitlərin (quru anatomik preparatlar və mulyajlar) istifadəsi ilə tələbələrə dayaq-hərəkət aparatı, əzələ sistemi, daxili orqanlar sistemi, endokrin sistem, immun müdafiə sistemi, sinir sistemi, duyğu orqanları, dəri örtüyü sistemi, ürək-damar sistemi və sidik-cinsiyyət aparatına daxil olan orqanların anatomik quruluşu, onların topoqrafiyası, inkişafı, yaş xüsusiyyətləri, qan və sinir təchizi və s. haqqında məlumatlar verilir.</td></tr>
</table>

<table>
<tr><td>Kursun məqsədləri</td><td colspan="3">Kursun əsas məqsədi tələbələrə insan orqanizmini təşkil edən əsas orqanların quruluşunu, yaş və funksional xüsusiyyətlərini tanıtmaq və anatomik quruluşu mənimsətməkdir. İnsan anatomiyası kursu insanın normal morfoloji quruluşu, bədən quruluşunun variasiyaları və digər xüsusiyyətləri ilə tanış edir. Bu kurs biologiya, eləcə də kimya-biologiya ixtisası üzrə təhsil alan tələbələrə tibbə, antopologiyaya, insan biologiyasına dair bir sıra məsələlərin həlli üçün nəzəri əsasdır. Kursun məqsədi tələbələri insanın normal anatomiyasına aid əsas məlumatlarla tanış etmək və öyrətməkdir. Həmçinin məqsəd tələbələri insan orqanızmının bütün sistemlərinin morfoloji quruluşu ilə əsaslı məlumatlandırmaq və müvafiq morfo-funksional qanunauyğunluqları izah etməkdən ibarətdir. İnsan anatomiyasına dair biliklərlə yanaşı bu biliklərin təcrübədə tətbiqinə dair məlumatlar da verilir (məsələn normadan kənar quruluş formalarını, yanı anomaliyaları, seçə bilmək və təyin etmək). Eyni zamanda digər həmmərz morfoloji elm sahələri (histologiya, antropologiya) barədə təməl biliklərlə tələbələri tanış etmək insan anatomiyası kursunun ikinci mühüm vəzifəsidir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Kursun sonunda tələbələr nəyi biəcəklər:<br>1. İnsan orqanizminin sistemlər üzrə ümumi quruluş və funksiyalarını.<br>2. Orqanizmin həyati vacib orqanlarının (beyin, qaraciyər, ağciyərlər, böyrəklər və s.) quruluş xüsusiyyətlərini.<br>3. Ayrı-ayrı nahiyələr üzrə orqanların topoqrafik xüsusiyyətlərini.<br>4. Əsas anatomik terminlərin latınca adlarını.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Məşğələ</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>x</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>x</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Yoxlama (quiz)</td><td>Semestr ərzində</td><td>10</td></tr>
<tr><td>Tapşırıq</td><td>Semestrin sonu</td><td>10</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestri sonunda</td><td>5</td></tr>
<tr><td>Aktivlik</td><td>Hər dərs</td><td>5</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Cədvəl üzrə</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>Cədvəl üzrə</td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Dərsin təşkili<br>-Fənnə aid ümumi xarakterli məlumatlar mühazirə zamanı tələbələrə çatdırılacaqdır.<br>-Yeni mövzu əyani vasitələrin (PPT və video fayllar) nümayişi ilə izah ediləcəkdir.<br>-Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri (Quiz) yoxlanılacaqdır.<br>-Seminar məşğələləri zamanı tələbələrin əvvəlki mövzunu mənimsəmələri şifahi və yazılı sorğunun keçirilməsi ilə hər dərs qiymətləndiriləcəkdir, semestrin sonunda isə ortaq qiymət çıxarılacaqdır (Fəallıq).<br>-Semestr ərzində fərdi mövzuda prezentasiyaların verilməsi vacibdir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır. Prezentasiyanın özü isə çap olunmuş variantda təhvil verilməlidir. Prezentasiya mövzuları və qaydaları haqda dərsdə daha geniş tanışlıq olunacaqdır.</td></tr>
</table>

| | |
|---|---|
| | -Semestr ərzində 9 fərdi laborator işi aparılması vacibdir. Laboratoriya dərsində ağ xalat geyilməlidir. Laborator işinin nəticələri dəftərdə protokollaşdırılmalıdır. Hər bir protokolda laborator işin adı, prinsipi, gedişi, alınan nəticələr və müzakirə bölmələri yazılmalı və müəllim tərəfindən yoxlnılmalı, şifahi sorğu aparılaraq qiymətləndirilmədir. Semestrin sonunda ortaq qiymət şıxarılır. Bu qaydalarla dərsdə daha geniş tanışlıq olunacaqdır.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>Dərsə gecikmələr və ya digər dərs pozuntuları<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qaib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır.<br>**Yoxlama işi (Quiz)**<br>Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>**İmtahanlar**<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br>**İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürülmələr qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>**Fənni bitirmək qaydası**<br>Universitənin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | **Mövzu №1:**<br>Anatomiya fənni və onun qısa inkişaf tarixi. Anatomiya elminin tədqiqat üsulları. Anatomiya terminləri. Dayaq-hərəkət aparatı. Sümük sistemi (osteologiya). Gövdə skeleti. | V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası atlası. Bakı, “Müəllim” nəşriyyatı, 2016, 652 səh.; Drake R, Vogl W, Mitchell A. Gray’s anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009 / Sərbəst işlər |

| | | | |
|---|---|---|---|
| 2. | | **Mövzu №2:**<br>Ətrafların skeleti. Kəllə sümükləri. Kəllənin skeleti. Kəllənin topoqrafiyası barədə anlayış. | V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası atlası. Bakı, “Müəllim” nəşriyyatı, 2016, 652 səh.; Drake R, Vogl W, Mitchell A. Gray’s anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009; V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, “Müəllim”, 2017 / Sərbəst işlər |
| 3. | | **Mövzu №3:**<br>Dayaq-hərəkət aparatı. Sümüklərin birləşmələri haqqında təlim (sindesmologiya). | V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, “Müəllim”, 2017, Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека. Учебник для студентов леч.-проф. факультета (в 2-х томах). Баку, 2010 / Sərbəst işlər |
| 4. | | **Mövzu №4:**<br>Əzələ sistemi (miologiya). Əzələlərin quruluşu və formaları. | Drake R., Vogl W., Mitchell A. Gray’s anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| 5. | | **Mövzu №5:**<br>Daxili orqanlar haqqında təlim (splanxnologiya). Həzm sisteminin borulu orqanları, quruluşu, funksiyaları. | V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, “Müəllim”, 2017, Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека. |

| | | | |
|---|---|---|---|
| | | | Учебник для студентов леч.-проф. факультета (в 2-х томах). Баку, 2010; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| 6. | | **Mövzu 6:**<br>Həzm sisteminin parenximatoz orqanları, quruluşu, funksiyaları.Tənəffüs sistemi, orqanları, quruluşu və funksiyaları. | V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, “Müəllim”, 2017, Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека. Учебник для студентов леч.-проф. факультета (в 2-х томах). Баку, 2010; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| 7. | | **Mövzu №7**:<br>Sidik sistemi. Böyrəklər və sidikçıxarıcı yolların morfo-funksional xüsusiyyətləri. | V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, “Müəllim”, 2017, Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека. Учебник для студентов леч.-проф. факультета (в 2-х томах). Баку, 2010; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| | | **Aralıq imtahanı** | |
| 8. | | **Mövzu №8:**<br>Cinsiyyət sistemi. Kişi və qadın cinsiyyət orqanları. | V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, “Müəllim”, 2017, Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. |

| | | | |
|---|---|---|---|
| | | | Анатомия человека. Учебник для студентов леч.-проф. факультета (в 2-х 9томах). Баку, 2010; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| 9. | | **Mövzu №9:**<br>Endokrin sistem, daxili sekresiya vəzilərinin quruluşu, onların təsnifatı. İmmun sistem barədə anlayış. | V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 clddə). Bakı, "Müəllim", 2017; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| 10. | | **Mövzu №10:**<br>Sinir sistemi haqqında təlim. Mərkəzi sinir sisteminin şöbələri və onların ümumi xassələri. Onurğa beyni. Uzunsov, arxa, orta və ara beyinlər. | Drake R, Vogl W, Mitchell A. Gray's anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009; V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, "Müəllim", 2017 / Sərbəst işlər |
| 11. | | **Mövzu №11:**<br>Mərkəzi sinir sistemi. Uc beyin. | Drake R, Vogl W, Mitchell A. Gray's anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009; V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, "Müəllim"; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| 12. | | **Mövzu №12:** | V.B.Şadlinski, Ş.İ.Qasımov, |

| | | | |
|---|---|---|---|
| | | Periferik sinir sistemi. Vegetativ sinir sistemi, quruluşu, əsas anatomik xüsusiyyətləri. | N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, "Müəllim"; Drake R, Vogl W, Mitchell A. Gray's anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| 13. | | **Mövzu №13:**<br>Duyğu orqanları haqqında təlim (esteziologiya). Analizator və onun şöbələri haqqında anlayış. | V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, "Müəllim"; Drake R, Vogl W, Mitchell A. Gray's anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009; Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека. Учебник для студентов леч.-проф. факультета (в 2-х томах). Баку, 2010 / Sərbəst işlər |
| 14. | | **Mövzu №14:**<br>Ürək-damar sisteminin ümumi icmalı. Ürəyin quruluşu, funksiyası. Qan damarlarının təsnifatı. | Drake R, Vogl W, Mitchell A. Gray's anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009; V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, "Müəllim"; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| 15. | | **Mövzu №15:** | Шадлинский В.Б., Сапин |

| | | | |
|---|---|---|---|
| | | Arteriya və venalar, quruluşları, anatomo-funksional xüsusiyyətləri. Limfa sistemi əhəmiyyəti. | М.Р., Мовсумов Н.Т. Анатомия человека. Учебник для студентов леч.-проф. факультета (в 2-х томах). Баку, 2010; Drake R, Vogl W, Mitchell A. Gray's anatomy for students: with student consult online access. 2 edition. Churchill Livingstone, 2009; V.B.Şadlinski, Ş.İ.Qasımov, N.T.Mövsümov. İnsan anatomiyası (3 cilddə). Bakı, "Müəllim"; Синельников Р.Д. Атлас анатомии человека. В 4-х томах. Москва, Медицина, 2019 / Sərbəst işlər |
| | | **Final imtahanı** | |